**Yem və yem əlavələrinin, aminli turşuların ilk dəfə qeydə alınması üçün tələb olunan sənəd və materiallar**

1. İstehsalçı şirkətə məhsulun istehsalına icazə verən sənədin (lisenziyanın) surəti;
2. Məhsulu istehsal edən şirkətə verilmiş Sərbəst Satış Sertifikatının surəti; GMP Sertifikatının surəti və ya istehsal şəraitinin GMP Sertifikatı tələblərinə uyğunluğu barədə məlumat;
3. *Məhsula aid onun sertifikatlaşdırılması üçün əsas normativ-texniki sənəd (standart və ya Texniki Şərtlər - MDB ölkələri üçün; Texniki Tələblər və Spesifikasiyalar - digər xarici ölkələr üçün);*
   Məhsulun istehsal sxemi və texnoloji prosesin mərhələlərlə qısa təsviri;
   Məhsulun ticarət adı;
   Məhsulun tərkibi;
   Məhsulun spesifikasiyası;
   Məhsulun keyfiyyət göstəriciləri;
   Məhsulun tərkibində GMO - lu inqredientlərin olub olmaması barədə məlumat;
   Məhsulun qablaşdırılma forması;
   Məhsulun saxlanma şəraiti, stabilliyi və yararlıq müddəti;
4. Məhsulun keyfiyyət göstəricilərini sınaqdan keçirmək üçün analiz metodları (lazım olan cihazları, ölçü vasitələrini,reaktivləri və onların hazırlanmasını göstərməklə və analizin gedişini ardıcıllıqla və ətraflı təsvir etməklə);
5. Məhsulun istifadəsi üzrə müəyyən edilmiş qaydada tərtib və təsdiq edilmiş istifadə təlimatı və içlik vərəq beynəlxalq dildə və azərbaycan dilində;
6. Məhsulun hər qablaşma formasının original rəngli etiket nümunələri;
7. Məhsul ilə işləyərkən şəxsi gigiyena və təhlükəsizlik qaydaları.
8. İstehsalçı ölkədə məhsulun qeydə alınması barədə verilmiş Qeydəalma Sertifikatının surəti;
9. Məhsulun başqa ölkələrdə qeydə alınması barədə verilmiş Qeydəalma Sertifikatının surəti; (əgər varsa)

***Qeyd: Sənədlərdə preparatın farmakoloji təsiri və ya onun mənfi təsirləri barədə kifayət qədər məlumat olmadıqda, İnstitut istehsalçı firmadan (sifarişçidən) əlavə arayış və ya onun təhlükəsizliyi barədə təminat məktubu tələb edə bilər***.